# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli 234-VI FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 6 mart tarixli 234-VI FR nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı”nın II bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 9-cu hissədə “Rabitə və Yeni Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

1.2. 10-cu hissə ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”nin 6-cı hissəsində “Rabitə və Yeni Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin.

3. “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü və 4-cü hissələrdə “Rabitə və Yeni Texnologiyalar” sözləri “Rəqəmsal İnkişaf və Nəqliyyat” sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın 11.4-cü bəndində "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

3.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı" üzrə:

3.3.1. 13-cü hissənin adında "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda 13.14-cü və 13.15-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| "13.14. | Rəqəmsal taxoqraf kartlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu |
| 13.15. | Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə iriqabaritli və ağırçəkili nəqliyyat vasitələrinin hərəkət etməsinə icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu" |

3.3.2. 14-cü hissə ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il 24 fevral tarixli 24 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.5-ci, 2.1-ci, 2.2-ci, 2.6 - 2.9-cu, 3.1 - 3.3-cü, 3.6-cı, 4.1-ci, 4.2-ci, 4.5-ci, 5.1-ci və 5.2-ci bəndlərdə "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

4.2. 2.3-cü bənddə "Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin "Radio-Televiziya Ötürücü Mərkəzi"nin" sözləri "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxsin" sözləri ilə əvəz edilsin.

5. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 avqust tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının qaz təchizatında mühafizə zonaları və təhlükəsizlik tədbirləri Qaydaları"nın 3.44-cü bəndində "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

6. "Naxçıvanpoçt" publik hüquqi şəxsinin Nizamnaməsinin və ştat cədvəlinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 noyabr tarixli 164 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin;

6.1. adından "və ştat cədvəlinin" sözləri çıxarılsın;

6.2. həmin Qərarla təsdiq edilmiş "Naxçıvanpoçt" publik hüquqi şəxsinin Nizamnaməsi" üzrə:

6.2.1. 1.2-ci bənddə "bu Nizamnaməni," sözlərindən sonra "Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin hüquqi aktlarını," sözləri əlavə edilsin;

6.2.2. 1.7-ci bənddə "Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyinə" sözləri "Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

6.2.3. 1.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"1.9. Qurum Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.";

6.2.4. 4.1-ci bəndin:

6.2.4.1. ikinci cümləsində "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri" sözləri "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti" sözləri ilə, "Naxçıvan Muxtar

Respublikasının Nazirlər Kabineti" sözləri "Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri ilə əvəz edilsin;

6.2.4.2. üçüncü cümləsində hər iki halda "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti" sözləri "Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözləri ilə əvəz edilsin;

6.2.5. 4.2.6-cı yarımbənddə və 6.1-ci bənddə ismin müvafiq hallarında "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti" sözləri ismin müvafiq hallarında "Nazirlik" sözü ilə əvəz edilsin;

6.2.6. 5.2-ci bənddə "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyindən ayırmalardan" sözləri "Nazirliyin ayırmalarından" sözləri ilə əvəz edilsin.

7. "Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatının və tabeliyində olan təşkilatların ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 aprel tarixli 85 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

8. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nın 3.1.5-ci yarımbəndində "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin.

9. "Bir sıra təsərrüfathesablı dövlət müəssisələrinin və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan bir sıra hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 2 fevral tarixli 28 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

10. "Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 fevral tarixli 30 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

11. "Bir sıra publik hüquqi şəxslərin ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 fevral tarixli 41 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

12. "Naxçıvan Muxtar Respublikasının ərazisində sabit şəbəkə telefonlarından istifadəyə görə aylıq abunə haqlarının tənzimlənməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 noyabr tarixli 212 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

12.1. preambulada və 3-cü hissədə "Rabitə və Yeni Texnologiyalar" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat" sözləri ilə əvəz edilsin;

12.2. 1-ci hissə ləğv edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "14" noyabr 2024-cü il

№ 63